# Mədəni irsin məhv edilməsi və etnik təmizləmə siyasəti



**İrəvan xanlığının ərazisi - indiki Ermənistan adlandırılan bölgə əsrlər boyu türk-müsəlman əhalisinin, azərbaycanlıların yaşadığı qədim tarixi-etnik torpaq olmuşdur. Arxeoloji tapıntılar, toponimlər və yazılı mənbələr bu ərazilərdə türkdilli xalqların, xüsusən də azərbaycanlıların qədim izlərini aydın şəkildə ortaya qoyur. Burada yerləşən alban və orta əsr islam memarlığı nümunələri, türbələr, məscidlər, qəbiristanlıqlar və digər maddi-mədəniyyət abidələri azərbaycanlıların bu torpaqlardakı tarixi varlığını sübut edir.**

XIX əsrin əvvəllərindən başlayaraq regionda gedən geosiyasi proseslər nəticəsində bu ərazilərin etnik-demoqrafik tərkibi süni şəkildə dəyişdirilmişdir. Çar Rusiyasının köçürmə siyasəti nəticəsində Qafqaza, xüsusilə də İrəvan xanlığının ərazisinə kütləvi şəkildə erməni əhalisi yerləşdirilmiş, proses sonrakı dövrlərdə də məqsədyönlü şəkildə davam etdirilmişdir. Azərbaycanın tarixi yaşayış məskənləri ya boşaldılmış, ya da onların toponimləri dəyişdirilərək assimilyasiyaya məruz qalmışdır. 1988-ci ildən etibarən Ermənistan ərazisində yaşayan azərbaycanlı əhaliyə qarşı həyata keçirilən deportasiya prosesi bu siyasətin növbəti mərhələsini təşkil etdi. Zəngəzur, Göyçə, Dərələyəz, Vedibasar və İrəvan şəhəri daxil olmaqla bir sıra bölgələrdə yaşayan on minlərlə azərbaycanlı ata-baba yurdlarından qovuldu. Eyni zamanda ermənilər tərəfindən bu bölgələrdəki yüzlərlə tarixi abidələr, məscidlər, qəbiristanlıqlar, mədrəsələr və evlər dağıdıldı.

Azərbaycan xalqının bu torpaqlardakı izlərinin silinməsi prosesi mədəni və ideoloji aspektlərdən aparılmışdır. Ermənistanın Azərbaycanın mədəni irs nümunələrini "erməni memarlığı" adı ilə təqdim etməsi tarixə və mədəni yaddaşa qarşı aparılan oğru təbliğatdır. Bu cür təhriflər azərbaycanlıların bölgədəki tarixi varlığını inkar etməyə yönəlmiş ideoloji cinayətdir. Ulu Öndər Heydər Əliyev vurğulayırdı ki, son iki əsrdə Qafqaz regionunda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız böyük faciələrə və itkilərə məruz qalmışdır: "Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Cənubi Qafqazın etnik və tarixi coğrafiyasında strateji əhəmiyyətə malik olan Zəngəzur mahalı əsrlər boyunca Azərbaycan xalqının formalaşma və mədəni inkişaf tarixində mühüm rol oynamışdır. Tarixi sənədlər və statistika göstərir ki, XX əsrin əvvəllərində Zəngəzurda 149 türk, 91 kürd və 81 erməni kəndi mövcud olub. Statistik göstəricilər azərbaycanlıların bu torpaqlardakı qədim və kompakt yaşayış arealını aydın şəkildə nümayiş etdirir. Zəngəzur mahalı tarixi-mədəni baxımdan Azərbaycanın Qarabağ və Naxçıvan bölgələri ilə sıx bağlı olmuş, Ermənistanla sərhəd rolu oynamışdır. Dağlarla əhatələnən mahal həm də Azərbaycanın mədəni, iqtisadi və strateji mərkəzlərindən biri olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq regionda baş verən geosiyasi dəyişikliklər, xüsusilə çar Rusiyasının Qafqazda apardığı köçürmə siyasəti bölgənin etnik xəritəsini süni şəkildə dəyişdirmişdir. 1905-1907 və 1914-1920-ci illərdə erməni silahlı dəstələrinin həyata keçirdiyi qırğınlar nəticəsində Zəngəzurda yarım milyona yaxın müsəlman əhali həyatını itirmiş, yüzlərlə kənd isə tamamilə məhv edilmişdir. Bu dövrdə 115 müsəlman kəndi yer üzündən silinmiş, 4.472 azərbaycanlı qadın və uşaq erməni silahlı birləşmələri tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Qeyd olunan cinayətlər sadəcə lokal qarşıdurmalar deyil, erməni millətçilərinin həyata keçirdikləri etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Zəngəzurda və digər bölgələrdə aparılan bu zorakı proseslər nəticəsində azərbaycanlılar qədim yurd yerlərindən qovuldular. 1920-ci il noyabrın 30-da Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Siyasi və Təşkilat bürolarının birgə iclasında qəbul edilən qərarla Zəngəzur Ermənistanın inzibati sərhədlərinə daxil edildi. Bu qərar o dövrdə sovet rəhbərliyinin Cənubi Qafqazda etnik-siyasi balans yaratmaq məqsədilə apardığı geosiyasi manipulyasiyaların bariz nümunəsidir. Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.637 kvadratversti Ermənistanın, 3.105 kvadratversti isə Azərbaycanın inzibati sərhədlərində qaldı. Bu, Zəngəzurun süni şəkildə parçalanaraq tarixi-coğrafi bütövlüyünün pozulmasına və Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında quru əlaqəsinin kəsilməsinə səbəb oldu.

Zəngəzur və İrəvan bölgəsindəki azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin məhv edilməsi də Ermənistanın həyata keçirdiyi təmizləmə siyasətinin təzahürüdür. 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövlətinin yaradılmasından və İrəvanın Ermənistanın paytaxtı elan edilməsindən sonra bu şəhərdəki azərbaycanlılara qarşı erməni təcavüzü artmış və ümumilikdə, Şərq memarlıq irsinə məxsus olan abidələr dağıdılmışdır. 1924-cü ildən başlayaraq şəhərin siması dəyişdirilmiş, türbələr, məscidlər, karvansaralar və digər mədəni obyektlər tamamilə məhv edilmiş və ya "rekonstruksiya" adı altında tarixdən silinmişdir. Bu gün müasir İrəvan şəhərində bir dənə də olsun erməni memarlığına aid abidənin olmaması əraziyə ermənilərin sonradan köçürülmüş bir etnos olduğunu təsdiqləyir.

Qərbi Azərbaycan bölgəsi, xüsusilə İrəvan şəhəri həm də mədəni-tarixi baxımdan, xalqımızın yaddaşında silinməz izlər buraxmış qədim türk torpaqlarıdır. Tarixi abidələrin coğrafiyası, memarlıq nümunələrinin zənginliyi və toponimika bu ərazinin əsrlərlə türk-müsəlman sivilizasiyasının mərkəzlərindən biri olduğunu təsdiqləyir. Bu baxımdan, İrəvan şəhəri nəinki Qafqazın, hətta bütün Yaxın Şərqin unikal şəhər mədəniyyəti nümunələrindən biri kimi tarixə düşmüşdür. İrəvanda XIX əsrin əvvəllərində fəaliyyət göstərən 8 karvansara - Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar və Hacı Əli karvansaraları şəhərin ticarət və mədəniyyət mərkəzi olub. İqtisadi mərkəzlərlə yanaşı, şəhərdə Şərq memarlıq üslubunda inşa edilmiş Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli və Hacı Fətəli hamamlarının fəaliyyət göstərməsi İrəvanın şəhərsalma mədəniyyətinin yüksək səviyyədə olduğunu göstərirdi. Sovet hakimiyyətinin qurulmasından sonra isə bu mədəni-tarixi izləri qəsdən məhv edildi. Göy Məscid muzeyə, Zal xan məscidi sərgi salonuna çevrildi. İrəvan qalası və onun daxilindəki tikililərin dağıdılması isə bu prosesin ən dramatik mərhələsi kimi yadda qaldı. İrəvanın XIX əsrin sonları, XX əsrin əvvəllərindəki küçə adları da şəhərin etnik və mədəni tərkibinə işıq salır. Şəriət, Karvansara, Qala, Sultan, Naxçıvan, Dəyirmanlı, Məscid, Təpəbaşı, Qəbiristan, Naib, Rüstəm xan, İmamrə, Korbulaq, Kətan kimi onlarca küçə adı göstərir ki, şəhər əsrlərlə Azərbaycan xalqına məxsus olmuşdur. Küçə adlarının dəyişdirilməsi və silinməsi isə yaddaşın planlı şəkildə unudulmasına yönəlmiş ideoloji akt kimi dəyərləndirilməlidir.

İrəvanda məscidlərin sayı XX əsrin əvvəllərinə qədər artım dinamikası üzrə yüksəlmişdir. Belə ki, 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 məscidin mövcudluğu bu ərazidə müsəlman icmasının say baxımından artmaqda olduğunu sübut edir. İrəvanın Came məscidi isə bu baxımdan simvolik əhəmiyyət daşıyırdı. Mədrəsə kompleksi ilə birlikdə bu dini kompleks həm də elmi mərkəz rolunu oynayırdı. Təəssüf ki, ermənilər tərəfindən Qədim Şəhər, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri dağıdıldı və bu da bir xalqın mənəvi sütunlarının qırılması idi. Eyni zamanda Zəngəzurun kəndlərində, Şəki, Vaqudi, Qarraq, Ballıqaya, Dəstəkərd və onlarla digər yaşayış məntəqəsindəki məscidlərin fəaliyyəti göstərir ki, bu bölgədəki dini sistem bir mərkəzdən, yəni İrəvandan idarə olunurdu. Bütün bu faktlar İrəvan şəhəri və ümumilikdə Qərbi Azərbaycanın tarixi-mədəni kimlik məkanı olduğunu təsdiqləyir.

Tarixi abidələrin, toponimlərin, ibadətgahların və karvansaraların məhv edilməsi və ya erməniləşdirilməsi milli yaddaşın silinməsi cəhdidir. Lakin yaddaş silinmir. Bugünkü vəzifəmiz bu tarixi-mədəni həqiqətləri sənədləşdirmək, beynəlxalq ictimaiyyətə təqdim etmək və milli irsin, tarixi ədalətin bərpası uğrunda mübarizəni davam etdirməkdir. Bu məqsədlə, Qərbi Azərbaycan İcması İrəvan Qazılığının fəaliyyətinin bərpası ilə əlaqədar bəyanat yayımlayıb. Sənəddə qeyd olunub ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının 22 may 2025-ci il tarixində Bakı şəhərində keçirilmiş əlahiddə toplantısında İrəvan Qazılığının fəaliyyətinin bərpası, İrəvan Qazılığının Əsasnaməsinin təsdiq edilməsi və İrəvan qazısının seçilməsi barədə qəbul etdiyi qərarlar təqdirəlayiqdir: "Xatırladırıq ki, İrəvan şəhərindəki Göy Məscid istisna olmaqla, Qərbi Azərbaycanda mövcud olmuş 300-ə yaxın məscidin hamısı Ermənistan tərəfindən məhv edilmişdir. Eyni zamanda 500-dən artıq qəbiristanlıq dağıdılmış, azərbaycanlıların mədəni və dini irsi sistemli şəkildə yer üzündən silinmişdir. Bu, beynəlxalq hüququn və insan haqlarının kobud şəkildə pozulmasıdır. İrəvan Qazılığının fəaliyyətinin bərpası dini etiqad azadlığının təmin edilməsi, Qərbi Azərbaycanda multikultural mühitin yenidən canlandırılması və tarixi ədalətin bərpası baxımından əhəmiyyətli bir addımdır. Bu qərar, eyni zamanda Ermənistandan zorla çıxarılmış azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışına xidmət edən mühüm bir inkişafdır. Qərbi Azərbaycan İcması olaraq, Ermənistan hökumətindən azərbaycanlıların Göy məsciddən sərbəst istifadəsinə şərait yaratmağı, dağıdılmış məscidləri və azərbaycanlılara məxsus digər mədəni abidələri bərpa etməyi və Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına şərait yaratmağı tələb edirik. Biz dünya dövlətlərini, BMT-ni və digər müvafiq təşkilatları Ermənistanın törətdiyi haqsızlıqların aradan qaldırılması üçün bu dövlətə təzyiq etməyə çağırırıq".

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**